AUDITOR

**AZƏRUÇOT**
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT

Azərbaycan, Bakı, AZ 1025,
Yusif Səfərov küç., 18, mən., 163
Tel.: +994 12 496 51 41
Mob.: +994 50 800 69 59
E-mail: azerucot@gmail.com
Web: www.azerucot.az

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Dendrologiya Bağı" PHŞ- nin Rəhbərliyinə:**

## Rəy

Biz, **Bakı Şəhər İcra Hakimiyyəti Başçısının tabeliyində "Dendrologiya Bağı" PHŞ -** in (bundan sonra Bağ) 31 dekabr 2023-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə mənfəət və zərər, məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

**Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Bağın 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə mənfəət və ya zərərini, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

## Rəy üçün əsaslar

Biz, auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Bağdan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcədə MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Hesab edirik ki,əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

## Maliyyə Hesabatları üzrə Rəhbərliyin və idarəetmə Səlahiyyəti Verilmiş Şəxslərin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə və maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya xətalardan qaynaqlanan əhəmiyyətli təhriflərin qarşısının alınması məqsədi ilə zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Bağı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda,

rəhbərlik İnstitutun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumtların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İdarəetməyə məsul şəxslər Bağın maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vertmir.Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

AZƏRBAYCAN RESPUBLİKASI "AZƏRUÇOT" MMC AUDİTOR THE REPUBLIC OF AZERBAIJAN "AZERUCHOT" LLC

**Direktor-Auditor** **Eldar Təhməzov**

Azərbaycan Respublikasının

Auditorlar Palatası İCAZƏ: AT/238 22.11.2021-ci il

17 sentyabr 2024-cü il